

Bursada ögey ata 17 yaşlı qızı ürəyindən bıçaqlayaraq ağır yaralayıb.

AzNews.az xəbər verir ki, 37 yaşlı C.K ögey qızını Facebook sosial şəbəkəsində oğlanlarla yazışdığı üçün vurduğunu deyib.

İşdən evə gələn ögey ata A.S-nın çatda oğlanlarla yazışdığını görüb əsəbiləşib və mətbəxdən götürdüyü bıçaqla qızı ürəyindən vurub.

Gənç qız reanimasiyaya yerləşdirilib. Şahid qismində dindirilən ana, ərindən şikayətçi olmadığını bildirib.

Polis hirsli ögey atanı həbs edib. İfadəsi alınmaq üçün polis İdarəsinə götürülən kişi, ögey qızına dəfələrlə xəbərdarlıq etdiyini söyləyib.

Ögey atanın ardınca polis idarəsinə gətirilən 3 uşaq anası Ş.K şahid qismində dindirilib. Şöbəyə uşaqları ilə birlikdə gələn qadın, ərinin dediklərini təsdiqləyib və qızının Facebook-da yazışdığı üçün hadisənin baş verdiyini deyib.